**UOT 39**
**https://doi.org/10.59849/2218-4783.2025.2.111**

**ASƏF ORUCOV**

# EVLİYA ÇƏLƏBİNİN "SƏYAHƏTNAMƏ"SİNDƏ NAXÇIVANIN TARİXİ-ETNOQRAFİK MƏSƏLƏLƏRİ

*Məqalədə XVII əsrdə yaşayıb-yaradan türk coğrafiyaşünas-səyyahı Evliya Çələbinin "Səyahətnamə"sində Naxçıvana dair verilən məlumatlar (maddi və mənəvi mədəniyyət, təsərrüfat və s.) şərh olunmuşdur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, səyyah həm indiki Naxçıvan ərazisində mövcud olar şəhərlər, rayonlar haqqında, həm də o dövr mövcud olan Naxçıvan haqqında məlumat vermişdir. Tədqiqat nəticəsində Azərbaycanda uzunmüddətli səyahətlərdə olan və gördükləri maraqlı faktları qələmə alan səyyahın fikirlərinə münasibət bildirilmişdir.*

**Açar sözlər:** *Naxçıvan, Qarabağlar, E.Çələbi, səyyah, hamam, bağçılıq.*

**Giriş.** XVII əsrdə yaşayıb yaratmış ictimai-siyasi xadim, məşhur coğrafiyaşünas-səyyah Evliya Çələbi dünyanın çox ölkələrini gəzmiş, gəzdiyi ölkələrlə tanış olmuş, gördüklərini və müşahidə etdiklərini on cildlik "Səyahətnamə" əsərində yazmışdır. E.Çələbi səyahətnaməsində ölkəmiz haqqında verdiyi məlumatlar Avropa səyyahlarının eyni janrda olan əsərləri ilə müqayisədə üstün cəhəti ondan ibarət idi ki, o gəzdiyi, görə-görə keçdiyi aləmin adamı idi və gördükləri ona həm doğma, həm də tanış idi. Gördüklərini bəzən təhlil edərək yazmışdır.

Bu əsər həm də orta əsr Azərbaycan şəhərlərinin tarixinə dair ilkin mənbədir, çünki məmləkətimizdə dəfələrlə olmuş Evliya Çələbi həm Cənubi, həm də Qərbi və Şimali Azərbaycanın bir çox şəhər və qəsəbələrini öz əsərində təfərrüatıyla təsvir etmişdir. Onu da qeyd etməliyik ki, öz təsvirini ümumi bir plan üzrə quran müəllif ilk olaraq bəhs etdiyi şəhərin əsasının kim tərəfindən və nə zaman qoyulduğu, sonralar kimlər tərəfindən inşa və ya bərpa olunduğu, adının mənşəyi barədə məlumat verir, bütün bunlara dair mövcud rəvayətləri nəql edir, şəhərin qalası, qaladakı qarnizonu, cami, məscid və mədrəsələri, hamam və dükanları, müqəddəs ocaq və pirləri barədə dolğun şəkildə xəbər verir. Ayrıca, şəhərin tarixi ilə bağlı əlamətdar hadisələrdən də bəhs etməyi unutmur. Eyni zamanda yerli əhalinin etnoqrafik xarakteristikasını, yəni hansı dinə və ya məzhəbə mənsub olmasını, adət və ənənələrini və hətta həmin ərazidə yaşayan müxtəlif etnik qrupların danışdığı dillərdən linqvistik nümunələr də təqdim edirdi. Buna görə də, təsadüfi deyil ki, orta əsr şəhərlərimizin ictimai, iqtisadi və mədəni tarixinin öyrənilməsində zəngin və müxtəlif sahələri əhatə edən məlumat toplusu olan "Səyahətnamə" əsərinə tədqiqatçılarımız tərəfindən daim müraciət olunur [7, s. 109].

**Evliya Çələbi və "Səyahətnamə" haqqında.** Evliya Çələbi ibn Dərviş Mehmet Zilli (1611-1682) "Səyahətnamə"sini başlıca olaraq öz müşahidələrinə əsasən yazmışdır. O, 1640-1644, 1646-1648, 1655-1656-cı illərdə Cənubi Qafqaza etdiyi səyahət vaxtı Cənubi və Şimali Azərbaycan şəhərlərini və əyalətlərini, o cümlədən Naxçıvanı çox diqqətlə öyrənmiş və əsərində səfər etdiyi yerlər barədə geniş bəhs etmişdir. Evliya Çələbi Osmanlı sultanı IV Muradın sarayında xidmət etmiş, Ərzurum gömrükxanasının katibi, Şərqi Anadolunun vergi müvəkkili işləmiş, Osmanlı qoşunlarının Qafqaza yürüşlərində iştirak etmişdi. 1647-ci ildə Azərbaycanda olarkən o, Osmanlı diplomatik elçiliyinin üzvü olmaqla, yenə də yüksək dövlət məmuru kimi tanınmışdı. Buna görə müəllifin yazdıqları və hadisələrə onun yanaşması rəsmi dövlət dairələrinin baxışını əks etdirir. Buna baxmayaraq E.Çələbinin "Səyahətnamə"si Naxçıvanın XVII əsr tarixini öyrənmək üçün dəyərli mənbədir. Göstərilən illərdə Cənubi Qafqaz səyahəti, o cümlədən Naxçıvan barədə bəhs olunan hissə bu oncildlik əsərin 2-ci cildinə salınmışdır. XIX əsrdə yaşamış görkəmli rus şərqşünası V.Bartold E.Çələbinin "Səyahətnamə"si haqqında yazır: "...Coğrafi, etnoqrafik, linqvistik materialların zənginliyi, bitkinliyi və hərtərəfliliyi baxımından ən yaxşı ərəb coğrafiyaşünaslarının əsərlərini özündən geridə

qoyur" [12, s. 309-310]. Tarixçi Sara Aşurbəyli də əsərə yüksək qiymət verərək vurğulayır: "Evliya Çələbinin Azərbaycan şəhərləri və xüsusilə, bu şəhərlərin sosial-iqtisadi vəziyyəti haqqında verdiyi məlumatlar olduqca maraqlıdır. Bu günə qədər qorunub saxlanan memarlıq abidələri, Azərbaycan əhalisinin etnik tərkibi, dili və məişəti haqqında məlumat vermişdir. Onun məlumatları orijinal olub, əsəri Azərbaycan şəhərlərinin öyrənilməsi üçün dəyərli mənbədir" [11, s. 2].

Məşhur türk səyyahı Evliya Çələbi öz "Səyahətnamə"sində Naxçıvanın hər tərəfli araşdırılmasına fikir vermişdir. Çələbinin səyahətnaməsindən biz Naxçıvan yaşayış məntəqələrindəki tikililər (məscidlər, karvansaralar, bazarlar, hamamlar, yaşayış evləri), əhalinin məşğuliyyəti (sənətkarlıq, ticarət və əkinçilik), əhalinin sosial vəziyyəti haqqında geniş məlumatlar alırıq. Səyyah Naxçıvanda bəhs olunan dövrdə mövcud olan şəhərlər haqqında da ayrı-ayrılıqda məlumat vermişdir.

**Naxçıvan şəhərləri haqqında.** Səyyahın səfər marşrutunu və qeydlərini diqqətlə izlədikdə yeni faktla rastlaşırıq. O ilk növbədə Naxçıvana Sədərək istiqamətindən daxil olmuşdur. İlk növbədə Sədərək haqqında məlumatlar vermişdir. Müəllif yazır ki, Sədərək Naxçıvan ərazisində İmam Əlirza Vəqfidir. Bir vəqf torpağı kimi Sədərək xəzinəyə ödəməli olduğu bütün vergilərdən azad idi. Məlumatlardan aydın olur ki, o dövrdə Sədərək həqiqətən böyük şəhər idi. Bütün vergi və mükəllifiyyətlərdən azad, abad, min evli, saysız-hesabsız bağ-bağçası, gözəl havası, əhalisinin hamısı şiə olan bir kənddir". E.Çələbi Sədərəyin təsvirinə davam etdirərək qeyd edir: "Şəhərdən kənar, bağlar kənarında yüksək qübbəli yerlərdə isti su mənbələri vardır. Hər birinin ölçüsü 10x10 olan üç hovuzunda gümüşbəndli balıqlar kimi əcəm gözəlləri üzüb danışmadan bir-birlərini qucaqlayır. Əhalisinin tamamının şiə məhzəbindən olduğunu bildirmişdir.

Orta əsrlər dövründə Naxçıvan bölgəsinin inkişaf etmiş, iri şəhərlərindən biri də Qarabağlar şəhəri idi. Şəhərin tarixi ərazisi indiki Kəngərli rayonunun Qarabağlar kəndinin yerində olmuş, ancaq ondan bir az geniş dairədə yerləşmişdir. Səfəvilər dövründən əvvəl geniş bir şəhər kimi şöhrət qazanmışdır. Türk səyyahı E.Çələbi Qarabağlar şəhəri haqqında da geniş məlumatlar vermişdir. Müəllif o dövrün tanınmış şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri olan Qarabağları belə təsvir edir: "Bu şəhərin özülünü Mənüçöhr qoyub. Şəhər çox qədimdir. İndi Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. III Mehtmet zamanında türklərin əlindən çıxaraq farsların ixtiyarına keçib. Əmir Teymur Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlağa alıb. Şəhər çox abaddır, ətrafında ucsuz-bucaqsız münbit düzənlik yerləşir. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə sayıblar. Şükür Allaha, bu şəhərdə iqlimin və suyun yaxşılığı bizim əhvalımızı qaydaya saldı. Deyilənlərə görə, burada bağı və üzümlükləri olan 10 000-ə qədər ev, 70 mehrab, minarəli 40 cami var. Karvansaray, hamam və bazarlar da çoxdur. Onların sayı artmaqda davam edir. Bura bolluq diyarıdır. Şəhərdə gəzərkən Yəzdanqulu adlı bir bağban bizə 26 çeşid dadlı armud gətirdi. Bunları yeyərkən ağzında dondurma hiss edirsən. Yaqut rəngli nar yetişir. Rəvan düyüsündən bişirilən plovu, hərsəsi çox dadlıdır. Aşpazları son dərəcə təmiz və hamısı müsəlmandır. Ümumiyyətlə, əcəmdə ərzaq malları satanlar (arasında) yunanlı, erməni yoxdur. Onlar bura yalnız ticarət məqsədi ilə gəlirlər [2, s. 11]. XVII əsrin ortalarına aid olan bu məlumat diqqəti cəlb etməkdədir. Burada müəllif nədənsə Səfəvilər dövlətini və onun başçısı I Şah Abbası fars kimi göstərmişdir. Çünki yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanın farsların əlinə keçdi deyə bir cümlə işlətmişdir.

Məlumatlardan belə aydın olur ki, burada orta əsrlər dövründə şəhər mədəniyyəti artıq formalaşıb başa çatmış, təsərrüfatın bütün sahələri inkişaf etməklə böyüklü-kiçikli çox sayda məscid, karvansaray, bazarlar, hamamlar olmuşdur. Əhalinin etnik tərkibinə gəlincə buradakıların mütləq əksəriyyətini oğuz türkləri təşkil etmişdir.

Təsvirdən bəlli olur ki, gözəl evlər, diqqəti çəkən bağ-bağat, zəngin mətbəx mədəniyyəti mövcud olmaqla aşpazların dini mənsubiyyətinə ciddi önəm verilməklə onların hamısı islam dininə mənsub olanlardır.

Buradan məlum olur ki, bölgənin mühüm əhəmiyyətli ticarət və sənətkarlıq şəhərlərindən biri sayılan Qarabağlar bu dövrdə təxminən Naxçıvan şəhəri böyüklükdə olmuşdur. Səyyah buradakı

bağlardan birində gəzərkən Yəzdanqulu adlı bir bağbanın ona 26 növ armud verdiyini də qeyd edir. Səyyah yazır ki, "Mələcə", "Abbasi", "Ordubadi" növlərindən olan armudu yeyəndə adam ağzında nabat dadı hiss edir. Bağların çoxluğuna görə səyyah buranı Qara Bağlar adlandırır [6, s. 15]. Bütün bunlar Naxçıvanda bağçılıq təsərrüfatının çeşidindən, rəngarəngliyindən xəbər verir. Onu da qeyd edək ki, günümüzdə də Qarabağlar kəndin də bağçılıq təsərrüfatının geniş yayıldığının şahidi oluruq.

Səyyah Qarabağlar şəhərində bir neçə gün qaldıqdan sonra bir neçə saat yol getdiklərini qeyd edir və Naxçıvan şəhərinə çatdıqlarını bildirir. Evliya Çələbi Naxçıvan şəhərinin adını "Nəqşi-cahan" kimi qeyd edir. Müəllif bu haqda yazır: "Nəqşi-cahan həqiqətən dünyanın ən gözəl şəhəri-dir. Bəziləri Nəxcuan, bəziləri Nəxşuan deyirlər" [9, s. 27]. Naxçıvan şəhərini təsvir edərkən qeyd etmişdir ki, bu şəhəri qədim zamanda şah Əfrasiyab bina etdirmişdir. Naxçıvana səfəri zamanı səyyah Naxçıvan şəhəri haqqında yazırdı: "Naxçıvan şəhəri gözəldir, keçmişdə isə daha qəşəng olmuşdur, lakin monqollar bir çox tikililəri və Naxçıvan qalasını dağıdıb xarabaya çevirmişlər. Naxçıvanda olarkən burada 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi və ibadətxana, 20 mehmanxana, 7 gözəl hamam, 40 məscid, təqribən 1000 dükan olduğunu bildirir. Müəlif burada bir sıra cümə məscidlərinində adını qeyd edir. Bura da bəzi məsələlərə diqqət yetirmək istərdik. Belə ki, müəllif öz ölkəsinin hökmdarı IV Muradı tərifləmək üçün Naxçıvan şəhərində 110 məscidin olunduğunu yazmışdır. Amma şəhərin o dövr üçün tarixi coğrafiyasına nəzər salsaq şəhər çox balaca olduğunu, şəhərdə 70 cümə məscidinin, 40 məscidin olması mümkün olmadığını görürük. Və onların heç birinin günümüzə gəlib çatmadığının şahidi belə oluruq.

Səyyah Azərbaycan şəhərlərindən bəhs edərkən bəzi vaxtlar onları şişirdilmiş şəkildə tərifləyir. Bu da təsadüfi deyildir. Azərbaycanın bir çox şəhərləri, xüsusilə Təbriz, Şamaxı, o cümlədən Naxçıvan 1635-ci ildə Sultan IV Muradın vaxtında fəth olunarkən dağıntılara məruz qalmışdır. Buna baxmayaraq bir neçə ildən sonra bu şəhərlərdə olan E.Çələbi bu barədə bir kəlmə belə danışmır. Əksinə səyyah həmin şəhərlərin abad olmasından bəhs edir. Halbuki 1664 və 1673-cü illərdə ölkəmizdə olan fransız səyyahları Tavernye və Şarden Osmanlı işğalından sonra şəhərlərin darmadağın olmalarından xəbər verirlər. Həmçinin Şah Abbasın "Böyük sürgün siyasəti" də şəhərlərin dağıdılmasına səbəb olmuşdur [6, s. 12].

**Təsərrüfat haqqında.** XVI-XVII əsrlərdə Naxçıvan şəhəri sənətkarlıq və ticarət mərkəzi olmaqla yanaşı, onun iqtisadiyyatında bağçılıq, əkinçilik, o cümlədən bostançılıq, tərəvəzçilik və heyvandarlıq mühüm yer tuturdu. Səyyahın yazdığına görə, hətta şəhərin mərkəzindəki geniş bir sahədə taxıl əkilirdi. O, Naxçıvanın təsərrüfat həyatından bəhs edərkən göstərir ki, burada 7 növ pambıq (bəyaz, xas, zaği, munlayi, zəfərani, ləli və s.) bitir, tərifə layiq taxıl, xüsusilə pirinc, buğda, dörd növ arpa yetişdirilir. Şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və s. becərilirdi. Naxçıvan üzümü xüsusi şöhrət qazanmışdır. Bizim də topladığımız etnoqrafik çöl materiallarına görə Naxçıvan şəhərində "Xunu", "Çillə" adlı qarpız, "Tutma" adı ilə bilinən qovun, "Mələyi", Xatınbarmağı", Kişmişi", "Aldərə" və s. üzüm növləri yetişdirilmişdir.

**Sənətkarlıq haqqında.** E.Çələbi bildirir ki, Naxçıvan ustalarının hazırladıqları nəfis sənətkarlıq məmulatları şöhrət qazanmışdır. Naxçıvan sənətkarları arasında məharətli ustalar var idi. Naxçıvanda "bəhram yuri" (basma naxışlı pambıq parça) "qələmkar" parçalar, çit süfrələr (dəstərxan) və s. istehsal olunurdu. Səyyahın verdiyi məlumata əsasən kişilərin və qadınların geyimləri bəlli olur: "Kişilər zər-zibalı tac üzrə başlıq sarıyıb qələmkari libas geyər və ayaqlarına əlvan keçədən çaxçur və yaşıl, qırmızı, narıncı, turuncu papuş geyərlər. Qadınları sivri başlıq geyib üzərlərinə bəyaz dördkünc üzar bürünüb ayaqlarına əlvan çəkmə geyərlər. Məhbubları cürbəcür xəz və kürklərdən İsfahan börkü geyib ürək ovlayan şahzadələr tək xuraman rəftar, nəzakətlə, incə şəkildə xoş söhbət edərlər [5, s. 45].

**Memarıq abidələri.** Səyyah Naxçıvanın tarixi keçmişi, memarlıq və tarixi abidələri, həmçinin təbiəti haqqında da məlumat verir. XVI-XVII əsrlərdə Naxçıvanda qiymətli sənət abidələri, məscidlər, türbələr, karvansaralar, hamamlar tikilirdi. Bu dövrdə Naxçıvanda yerli ustalar tərəfindən

tikilən Əhməd Paşa, Fərhad Paşa, Gözəl Əli Paşa, Cığaloğlu, Xadim Cəfər Paşa camiləri gözəl sənət nümunələridir. E.Çələbi yazır: "Bu cümə məscidləri şirəli, bəzəkli kaşılar, rəngarəng şüşələrlə bəzədilmişdir". Bir neçəsinin yarımdairə şəklində çatılmış tavan künbəzləri şirəli kaşılarla örtülmüşdür. Şəhərdə İstanbul memarlığı üslubunda 33 minarə vardır. Əhməd paşa məscidi eynilə İstanbuldakı Rüstəm paşa məscidi kimidir. O, qeyd edir ki, XVII əsrdə Naxçıvanda divarları Çin kaşısı ilə bəzədilmiş çoxlu hamam var idi. O, gözəl memarlıq xüsusiyyətlərinə malik olan bəzəkli Cənabi hamamı haqqında yazır ki, bura son dərəcə gözəl və işıqlıdır. Lakin qapı və divarı şirəli kaşıdan və döşəmələri isə ağ mərmər daşındandır. Hamam məhrabları şahmat naxışı ilə bəzədilmişdir. Araşdırmacı səyyah mehmanxanalarına yaxın Zal Paşa hamamının olduğunu qeyd edir. Onun döşəməsi başdan-başa parlaq və səqfi mərmərdəndir. Elə münəvvər bir hamamdır ki, şüşələri büllurdur. Qübbəsinin altında böyük bir hovuz vardır.

**Adət-ənənələr və inanc sistemi.** Müəllif əhalinin dini etiqadına toxunaraq bildirir ki, "şəhərin əhalisi şafii məzhəbindədirlər". Lakin yalan deyirlər, cəfəridirlər. Beş dəfə namaz qılmağı davam etdirirlər. Lakin camaat namazı qılmazlar. Naxçıvan əhalisinin camaat namazı qılmaları heç günümüzdə də demək olar ki, yox dərəcəsindədir. Çələbinin "onlar yalan deyir, şafii yox, cəfəridilər" sözünə gəldikdə isə müəllifin qənaətinin doğru olduğunu bizdə təsdiq edirik. Bu günün özündə belə nəinki Naxçıvan şəhər əhalisi, bütün Naxçıvanlılar cəfəri olduqlarını qeyd edirlər. Bəlkə də həmin zamanı insanlar səyyaha xoş görünmək üçün (çünki səyyah sünni idi. Şafilikdə sünni təriqətinə daxil olan məhzəblərdən biridir) və yaxud həmin dövr bura osmanlıların idarəsi altında olduğu və osmanlılardan çəkindikləri üçün belə demişlər.

Evliya Çələbi xalqımızın qonaqpərvərlik adətindən də geniş şəkildə bəhs etmişdir. O, bu haqda yazmışdır: "Cəsingirbaşı (xörəkpaylayanların başçısı) qabların arasına girib hər kəsin qarşısındakı qablara kəfkir ilə xanın önündəki zəfəranlı plovdan qoymağa başladı... yeməkdən sonra xan ilə həqirə aftafa-ləyən gəldi və Osmanlı adəti üzrə əllərimizi yuduq. Digərləri əllərinin ucunu islanmış dəsmallarla sildilər. Beləcə qəribə adətləri vardır" [3, s. 64].

Bundan əlavə səyyah xalqımızın müsiqi mədəniyyəti haqqında da məlumat vermişdir. O qeyd etmişdi ki, bir saz və söz məclisi oldu. O, qədər yaxşı keçdi ki, Hüseyin Bayqara belə onu qısqanardı. Burda biz aşıq sənətinin, söz sənətinin xalqımızla nə qədər iç-içə olduğunun, bu sənətin nə qədər inkişaf etdiyinin şahidi oluruq.

"Səyahətnamə"də mənəvi mədəniyyətlə bağlı bir sıra məsələlərə də toxunulmuşdur. E.Çələbi Səfəvilər dövlətinə gələrkən o, adi səyyah qismində deyil, həm də diplomatik missiya daşıyırdı. Bu səbəbdən kifayət qədər dini-siyasi məsələlərə diqqət yetirmişdi. O, Azərbaycanda, olarkən ilk növbədə bəzi dini ayinlərin icrasını müşahidə etmiş, burada əsas dini məzhəbin – şiəliyin qayda-qanunlarına nəzər salmışdır [10, s. 151]. Əlbəttə bu adət-ənənələr müəyyən bir bölgə və şəhərə deyil, istisnasız bütün Azərbaycana məxsusdur. "Səyahətnamə"də qeyd olunur: "Hər il məhərrəm ayının onuncu aşura günü kiçikdən tutmuş böyüyə qədər, əyan və əşrəf bir yerə toplaşıb, çadırlarını qurub qalırlar. Üç gün, üç gecə söhbət edib, Kərbəla şəhidləri uğruna ehsan etdikləri yüz minlərlə aşura qazanında xörək bişirib pulsuz paylayırlar. Onlar bunun savabını Kərbəlada şəhid olanların ruhuna ithaf edirlər. Yenə o gün burada şəkərdən hazırlanmış şərbət paylayırlar. Su satanlar öz kəndlərindən qiymətli büllur qablarda gətirdikləri suyu "Hüseyni Kərbəla eşqinə səha" deyərək iki tərəfə çevrilərək orada olanlara müftə paylayırlar, kübar və zadəgan təbəqəsindən olan bir neçə nəfər də boyunlarında su ilə dolu küzələr gəzdirib, "ruhi Huseyni Kərbala" deyərək su paylayırlar [4, s. 11].

Biz səyyahın Təbrizdən şimal-qərb istiqamətində hərəkətini izlədikdə görürük ki, Çələbi Xoya çatmazdan öncə Arazdan cənubdakı Naxçıvan kəndlərindən bəhs edir. Bununla düşünmək olar ki, Naxçıvan XIII əsrdə Hülakülər zamanında Naxçıvan tüməni adlanan inzibati vahid olaraq Arazdan cənubdakı bəzi torpaqları əhatə etdiyi kimi, Səfəvilər dövründə də Arazdan cənubdakı bəzi ərazilər Naxçıvan mahalı və ya vilayəti adlanan inzibati vahidə tabe idi. Şimal tərəfə abad bir düzənlikdən keçib 7 saat yol gedəndən sonra Kərəmiş kəndinə çatdıq. Naxçıvan mahalında min evi olan böyük

bir kənddir. Orada 7 cümə məscidi, karvansara, hamamları, üstüörtülü bazarı vardır. Buradan da 200 müşayiətçi ilə şimala doğru qamışlıq və bataqlıqlardan keçərək Kənduşlə çayı kənarında alaçıqlarımızda istirahət edərək bir gecə zövq aldıq. Bu çay öz mənşəyini Naxçıvan dağlarından alıb, Araz çayı ilə birləşir. Oradan qumsal yerlərdən keçməyə başladıq. İki saata Xoy qalasına çatdıq" [1, s. 217]. Səyyah daha sonra Çors adlı şəhər barəsində məlumat verir. Çələbinin verdiyi məlumatlardan belə anlaşılır ki, Çors da Arazın cənubunda yerləşir və Naxçıvan torpaqlarına daxil idi. Bu ərazilər əslində indiki Xoy və Makunun şimal ərazilərini əhatə edir. Onu da qeyd edək ki, Naxçıvan xanlığının sərhədləri də Xoy və Maku xanlıqları ilə əhatə olunmuşdur. Sultan IV Muradın yürüşü zamanı Çors qalası dağıdılmışdı. Çələbinin özü müşahidə etmişdir ki, qalanın divarlarında çatlar, uçulub dağılmış hissələr mövcud idi. Səyahətnamədən bizə məlum olur ki, bu beşkünc qala Ağqoyunlu Uzun Həsən tərəfindən tikdirilmişdir [1, s. 221].

**Nəticə.** Aparılan tədqiqatlar nəticəsində belə bir fikrə gəlmək olur ki, Evliya Çələbinin "Səyahətnaməsi" ölkəmizin tarixi-etnoqrafiyasını öyrənilməsi baxımından mühüm yer tutur. Əsərə tarixi-etnoqrafik cəhətdən nəzər saldıqda bəzi məsələləri fakt olaraq ortalığa qoyduğunun şahidi oluruq. Ancaq əsərdə Naxçıvanla bağlı bəzi məslələr vardır ki, həqiqəti əks etdirmir, şişirdilmiş halda qeyd edilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 400 s.
2. Baxşəliyev A. Azərbaycanın sosial-iqtisadi həyatı Evliya Çələbinin "Səyahətnamə"sində (XVII əsrin 40-cı illəri). Bakı: ADPU nəşriyyatı, 2000, 157 s.
3. Bayramlı Z., Əzizli V. Azərbaycan Evliya Çələbinin 1654-cü il səyahətnaməsində. Bakı: Azərnəşr, 2000.
4. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr) / Türk dilində işləyən və şərhlərin müəllifi prof. Seyidağa Onullahi. Bakı: Azərnəşr,1997, 92 s.
5. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan / Nəşrə hazırlayan Mehmet Rıhtım. Bakı: Qafqaz universiteti nəşriyyatı, 2012, 296 s.
6. Hacıyev İ. Naxçıvan Evliya Çələbinin "Səyahətnamə"sində // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2013, № 3, s. 9-19.
7. Hüseyn F. Evliya Çələbinin "Səyahətnamə"sində Şamaxı şəhərinin təsviri // Tarix institutu elmi əsərlər, Bakı, 2009, c. 28, s. 109-115.
8. Naxçıvan tarixi: 3 cilddə. I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
9. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
10. Məmmədova İ. Evliya Çələbinin "Səyahətnamə"sində Təbriz şəhərinə dair etnoqrafik bilgilər // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2013, № 2, s. 146-154.
11. Ашурбейли С. Сияхат-наме Эвлия Челеби как источник по изучению социально-экономической и политической истории городов Азербайджана в I половине XVII в. / Материалы XXV Международного конгресса востоковедов. Москва, 1960, с. 2-4.
12. Бартольд В.В. Сочинения. Т. IX, Москва: Наука, 1977, 967 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail:aseforucov@yahoo.com.tr***

**Asaf Orujov**

## HISTORICAL AND ETHNOGRAPHIC ISSUES OF NAKHCHIVAN IN THE "TRAVEL NOTES" OF EVLIYA ÇELEBI

The article comments on the information (material and spiritual culture, economy, etc.) presented in the "Travel Notes" of the 17th-century Turkish geographer and traveler Evliya Çelebi. As a result of the study, it was revealed that the traveler provided information both about the cities and regions that existed on the territory of present-day Nakhchivan and about the Nakhchivan that existed at that time. As a result of the study, an attitude was expressed towards the opinions of the traveler, who was on long trips around Azerbaijan and wrote down the interesting facts he saw.

**Keywords:** *Nakhchivan, Karabaglar, E.Çelebi, traveler, bathhouse, gardening.*

**Асеф Оруджев**

## ИСТОРИКО-ЭТНОГРАФИЧЕСКИЕ ВОПРОСЫ НАХЧЫВАНА В «ПУТЕВЫХ ЗАПИСКАХ» ЭВЛИИ ЧЕЛЕБИ

В статье комментируются сведения (материальная и духовная культура, экономика и т. д.), представленные в «Путевых записках» турецкого географа и путешественника XVII века Эвлии Челеби. В результате исследования было выявлено, что путешественник предоставил сведения как о городах и областях, существовавших на территории нынешнего Нахчывана, так и о существовавшем в то время Нахчыване. В результате исследования было выражено отношение к мнениям путешественника, находившегося в длительных поездках по Азербайджану и записавшего увиденные им интересные факты.

**Ключевые слова:** *Нахчыван, Карабаглар, Э.Челеби, путешественник, баня, садоводство.*

*(Tarix elmləri doktoru Şirin Bünyadova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 03.09.2025**
**Son variant 29.09.2025**